# Müdriklik zirvəsinə ucalan insan



***Kalinino Qərbi Azərbaycanın bir parçası idi. Atlas geyimli dağlar, sıldırım qayalıqlar, göylərə ucalan qol-budaqlı ağaclar, axan çaylar bu yerlərə yaraşıq verirdi. El arasında bu məkanı uzunömürlülər diyarı adlandırırdılar. Kalinino (keçmiş Varantsovka) rayonunun yetişdirib boya-başa çatdırdığı qeyrətli, el gözündə pillə-pillə ucalan, səxavətli, hünərli, cəsarətli və layaqətli oğullarından biri də ömrünün 90-cı baharını yaşayan Bayram Osman oğlu Əlləzovdur.***

Neçə-neçə hadisələr, mübarizələr meydanında Bayram Əlləzovu bütün əzəmətilə görüb-duyuruq. O, həm də geniş dünyagörüşünə, zəngin həyat təcrübəsinə, ensiklopedik elmi biliyə, yüksək intellektə, ali təfəkkürə və natiqlik qabiliyyətinə malik müdrik şəxsiyyətdir.

Bayram Əlləzov 1935-ci ildə Kalinino rayonunun ecazkar guşələrindən olan Qızıl Şəfəq kəndində dünyaya göz açmışdır. Bu kənd dəniz səviyyəsindən 1660 metr yüksəklikdə yerləşir, başı buludlardan nəm çəkən dağlar mahir rəssam fırçasından çıxmış tablonu xatırladır. Erməni daşnaklarının gözü həmişə bu yerlərdə olmuş, türk oğullarına heyranlıqla baxmışlar.

Bayram Əlləzov təbiətin vurğunu idi. Məktəbdə təhsil aldığı illərdə yayın loğman çağında tez-tez şagird dostları ilə "Qaranlıq dərə" dağına, "Əyriçay", "Daşır" çaylarının nəğməli sahillərinə, həmçinin, "Novlu" bulağa, "Sərdar" bulağına, "Hümmət" bulağına baş çəkər, gil vuran qartallara həsrət-həsrət baxardı. Evə qayıdarkən çəmənliklərdən çoxlu göbələk, quzuqulağı, əvəlik, baldırğan toplayıb aparardı. Şərbət bulaqların dişgöynəyən suyundan doymazdı...

Bayram Əlləzov doğma kəndlərində VII sinfi bitirdikdən sonra təhsilini qonşu İlməzli kəndində davam etdirdi. Elmi biliklərlə mükəmməl yiyələnmək üçün nə gecəsi oldu, nə də gündüzü, əlindən kitab düşmədi. Dərs əlaçısı kimi şəkli məktəbin şərəf lövhəsini bəzədi.

O, katibi kənd orta məktəbini başa vurduqdan sonra Gəncə Pedaqoji institutun tarix fakültəsinə daxil oldu. Bayram Əlləzov ali məktəbi qırmızı diplomla başa vurdu. İlməzli kənd orta məktəbində dərs hissə müdiri kimi pedaqoji fəaliyyətə başladı. Sonra isə müəllimlik fəaliyyətini doğma kəndləri olan Qızıl Şəfəqdə davam etdirdi. Məktəbdə müəllim işlədiyi illərdə öz gücü və zəhməti, fitri istedadı, nüfuzedici nitqi ilə fərqləndi. Məktəb direktoru vəzifəsinə irəli çəkildi. Rayon partiya komitəsinin göstərişi ilə Bayram Əlləzov sovxoz ilk partiya təşkilatının katibi seçildi. Çox keçmədən sovxoz direktoru təyin olundu. Sovxoz direktoru işlədiyi müddətdə gənc kadrların seçilib yerləşdirilməsini diqqət mərkəzində saxladı. Torpaqdan sabit məhsul götürülməsi üçün əkin sahələrinin meliorasiyasına, münbitliyinin artırılmasına, texnikadan səmərəli istifadə olunmasına maksimum səy göstərdi. Başçılıq etdiyi təsərrüfatda mütərəqqi metodların tətbiqinə üstünlük verdi. Kolxozun qabaqcıl zəhmət adamları yüksək iqtisadi göstəricilərin müqabilində orden və medallara layiq görüldü.

1968-ci ilə qədər İlməzli sovxozunda direktor vəzifəsində çalışan Bayram Əlləzov doğma kəndlərində həmin vəzifədə işləməyə başladı. Bilik və bacarığını əkinçilik və heyvandarlıq məhsulları istehsalının çoxaldılmasına sərf etdi. Çox keçmədən "Qızıl Şəfəq" rayonun iqtisadiyyatın inkişaf etmiş təsərrüfatlarından birinə çevrildi.

Bir müddət sovxoz direktoru işlədikdən sonra Bayram Əlləzov ikinci təhsilini almaq məqsədilə Gəncə Kənd Təsərrüfatı Akademiyasının qiyabi şöbəsinə daxil oldu. Qızıl Şəfəq sovxozunun direktoru işləyərkən dəfələrlə müxtəlif mükafatlara layiq görülmüş "Sovet Ermənistanı" qəzetində müsahibələri dərc olunmuş, bir neçə dəfə Azərbaycan dilində səsləndirilən verilişə dəvət olunmuşdur.

Ermənipərəst Qorbaçovdan istifadə edən haylar 1988-ci ildə uydurma Dağlıq Qarabağ məsələsini ortaya atdılar. Bununla da ermənilər faşist ideologiyasını davam etdirərək Qərbi Azərbaycandakı soydaşlarımızı min illər boyu yaşadıqları etnik torpaqlarından deportasiya etdilər. Erməni xəyanəti nəticəsində Kalinino rayonunda yaşayan soydaşlarımız da doğma ata-baba yurdlarını məcburən tərk etdi. Bayram Əlləzov doğma kəndlərindən ayrılmağa məcbur oldu və onun şəxsi təşəbbüsü ilə Qızıl Şəfəq kəndinin sakinləri 1990-cı ildə Şamaxı rayonunda məskunlaşdı. Bayram xalqın tələbi ilə yenidən kolxoz sədri vəzifəsinə təyin olundu. İşlədiyi kolxozda üzümçülüyün inkişaf etdirilməsi istiqamətində uğurlu addımlar atıldı. Hətta Moldovadan "Merlop" növlü məhsuldar üzüm sortu gətirildi. Çox keçmədən yeni növ üzümlüklərdən rekord məhsul götürüldü. Moldovadan gətirilən yeni üzüm sortu rayonun bir neçə təsərrüfatlarında, hətta respublikada da geniş yayıldı.

Bacarıqlı təsərrüfat rəhbəri kimi Bayram Əlləzov 2018-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə III dərəcəli "Əmək" ordeni ilə təltif olundu. Hətta onun 2 dəfə Prezident İlham Əliyevlə görüşü olub. B.Əlləzov Şamaxıda kolxoz sədri işlədiyi illər ərzində başçılıq etdiyi təsərrüfat haqqında müxtəlif televiziya kanallarında geniş verilişlər hazırlanmışdır. O, Şamaxıda kolxoz sədri vəzifəsində çalışarkən yeni növ üzüm plantasiyalarının hər hektarından 35 sentner məhsul götürülmüşdür.

Bayram Əlləzov 4 övlad atasıdır. 8 nəvəsi, 2 nəticəsi var. Onlar Kalinino, Qərbi Azərbaycanla bağlı maraqlı xatirələr danışırlar.

Bayram Əlləzov haqqında danışan oğlu Fuad dedi:

- Atamın qəlbi Vətən, yurd eşqi ilə döyünür. Əmindir ki, çox tezliklə Prezident cənab İlham Əliyevin qətiyyəti ilə Qərbi azərbaycanlılar qəribsəmiş yurd yerlərinə dönəcəklər...

**Qədir ASLAN,**
**"Respublika".**

Respublika .- 2025.- 8 avqust (№ 164).-